ГЕОГРАФИЯ

© N.H.Əyyubov, N.B.Paşayeva, 2013

LƏNKƏRAN-ASTARA İQTİSADİ-COĞRAFİ RAYONUNDA ŞƏHƏR MƏSKUNLAŞMASI VƏ ONUN TƏKMİLLƏŞDİRİLMƏSİ

N.H.Əyyubov, N.B.Paşayeva

Azərbaycan MEA akad. H.Ə.Əliyev adına Coğrafiya İnstitutu
AZ1143, Bakı, H.Cavid prosp., 115

Məqalədə iqtisadi rayonda şəhər məskunlaşmasının inkişaf xüsusiyyətləri, iqtisadi bazası ilə demoqrafik inkişafı arasında qarşılıqlı əlaqə və asılılıq, əhalinin məskunlaşmasının perspektiv ərazi təşkili baxımından şəhər və qəsəbələrin inkişafının tənzimlənməsi məsələləri araşdırılır.

Tədqiqatın aktuallığı və məqsədi. Sosial-iqtisadi həyatın əsas aparacı mərkəzi rolunu oynayan şəhərlərin öyrənilməsi, onların demoqrafik və iqtisadi bazalarının optimal inkişafının təmin edilməsi ümumi regional inkişafın təkmilləşdirilməsi üçün mühüm amildir. Tədqiqat işində əsas məqsəd iqtisadi rayonun şəhər məskunlaşma sisteminin inkişaf xüsusiyyətlərini, daxili strukturunda baş verən dəyişiklikləri araşdırmaq, hər bir şəhərin regionda yerini, onların perspektiv sosial-iqtisadi inkişafının təkmilləşdirilməsinin iqtisadi-coğrafi istiqamətlərini müəyyən etməkdir (Əyyubov, 2008).

Şəhər əhalisinin və şəhər yaşayış məntəqələrinin sayına görə Lənkəran-Astara iqtisadi-coğrafi rayonu Abşeron, Aran və Gəncə-Qazax iqtisadi rayonlarından sonra respublikada 4-cü yeri tutur. Onun payına Azərbaycan Respublikası şəhər əhalisinin 4,2%-i, şəhər və qəsəbələrinə isə 26%-i düşür. Şəhər yaşayış məntəqələri 8 şəhər və 12 qəsəbə ilə təmsil olunur. Bu yaşayış məntəqələrində 204091 nəfər əhali cəmlənmişdir (2009). Lənkəran-Astara iqtisadi-coğrafi rayonu respublikanın nisbətən zəif urbanizasiyalaşmış regionlarındandır. Ümumi əhalinin tərkibində şəhər əhalisinin payı 24,7% təşkil edir. Bu da orta respublika səviyyəsindən (54%) iki dəfədən də azdır. Orta ölkə səviyyəsi ilə müqayisədə iqtisadi-coğrafi rayonun aşağı urbanizasiya səviyyəsi burada şəhəryaradıcı təsərrüfat sahələrinin zəif inkişaf etməsi ilə əlaqədardır. Şəhəryaradıcı təsərrüfat sahələri olan sənaye, tikinti-quraşdırma, nəqliyyat və rabitə, ticarət, texniki təchizat və s. sosial infrastruktur sahələri orta respublika göstəriciləri ilə müqayisədə çox zəif inkişaf etmişdir.

Lənkəran-Astara iqtisadi-coğrafi rayonunun orta ölkə səviyyəsi ilə müqayisədə nisbətən zəif urbanizasiyalaşması müəyyən dərəcədə iqtisadi rayonun spesifik demoqrafik inkişafı ilə də bağlı olmuşdur (Əfəndiyev, 2002). Belə ki, iqtisadi rayon respublikada ən yüksək təbii artıma malikdir və bu göstərici həmişə kənd yerlərində daha yüksək olmuşdur. Kənd yerlərindəki yüksək təbii artım isə ümumi əhalinin tərkibində kənd əhalisinin payının çox, şəhər əhalisinin payının isə az olmasına səbəb olur.

Lənkəran-Astara iqtisadi-coğrafi rayonu ərazisində şəhər yaşayış məntəqələrinin yaranması tarixi çox qədim zamanlara getsə də, şəhər məskunlaşma sisteminin sürətli inkişafı, daha geniş miqyasda şəbəkə yaratması Sovet hakimiyyəti illərində mümkün olmuşdur. Azərbaycanda Sovet hakimiyyəti qurulanadək bu iqtisadi-coğrafi rayonun müasir ərazisi çərçivəsində şəhər yaşayış məntəqəsi kimi yalnız Lənkəran şəhəri mövcud olmuşdur. Sovet hakimiyyəti illərində kənd təsərrüfatının intensivləşdirilməsi, xüsusən də əməyin mexanikləşdirilməsi çətin olan əməktutumlu sahələrin (əsasən də çayçılıq), sənayenin, balıqçılığın inkişafı, nəqliyyat və nəqliyyat-iqtisadi əlaqələrin genişlənməsi, su-təsərrüfat obyektlərinin və s. çoxalması şəhər yaşayış məntəqələrinin və onların sistemlərinin formalaşmasına səbəb olmuşdur. Böyük Vətən müharibəsi illərinə (1941-1945) qədər Astara, Port-İliç şəhərləri, Kirov və Nərimanabad qəsəbələri yaranmışdır (Mehrəliyev və b., 1988).

II Dünya müharibəsindən sonra Lənkəran-Astara iqtisadi-coğrafi rayonunda şəhəryardıcı təsərrüfat sahələrinin intensiv inkişafı nəticəsində Cəlilabad və Masallı şəhərləri, Lerik, Yardımlı, Avrora, Haftoni, Boradigah, Kijaba qəsəbələri formalaşdı. Bunun nəticəsində iqtisadi-coğrafi rayonda şəhər əhalisinin sayı 10 dəfədən çox artmış oldu. Şəhər əhalisinin artım tempinə görə Lənkəran-Astara iqtisadi-coğrafi rayonu həmişə orta respublika səviyyəsi ilə müqayisədə daha sürətlə artmışdır. Bu da şəhəryaradıcı təsərrüfat sahələrinin sosial infrastrukturunun sürətli inkişafı ilə əlaqədar olmuşdur. Hazırda iqtisadi rayonun şəhər yaşayış məntəqələrində olan sənaye müəsisələri əsasən yerli xammalla işləyərək müəyyən təsərrüfat funksiyası həyata keçirirlər. Şəhər və qəsəbələrin sənaye strukturunda aparıcı yeri yeyinti sənayesi tutur. Şəhər yaşayış məntəqələrində çay fabrikləri, meyvə-tərəvəz konserv zavodları, balıq emalı müəssisələri, süd emlı zavodları və s. sosial təyinatlı müəssisələr işləyir.

Əksər şəhər və qəsəbələr iqtisadi-coğrafi rayonun düzən-ovalıq, dəniz sahili ərazisində, beynəlxalq əhəmiyyətli Bakı-Astara-Tehran avtomobil yolunun və həmçinin Bakı-Astara dəmir yolunın keçdiyi əlverişli iqtisadi-coğrafi mövqedə cəmlənmişdir. Ərazidə Lənkəran, Astara, Cəlilabad, Masallı, Liman, Göytəpə və Nərimanabad şəhər və qəsəbələri cəmlənmişdir. Bu ərazidə iqtisadi-coğrafi rayonun şəhər əhalisinin 80%-ə qədəri məskunlaşmışdır. İqtisadi rayonun dağlıq hissəsində Yardımlı (6603 nəfər) və Lerik (7301 nəfər) şəhərləri yerləşir. Onlar əhalisinin sayına görə o qədər də böyük deyillər. Bu iki şəhərdə ümumi iqtisadi rayonun şəhər əhalisinin 6,8%-i yaşayır.

Lənkəran-Astara iqtisadi-coğrafi rayonunun şəhər məskunlaşma sisteminin inkişaf dinamikasını və strukturunda baş verən dəyişiklikləri əhalinin siyahıyaalınma materialları əsasında tərtib olunmuş aşağıdakı cədvəl üzrə izləmək olar (Azərbaycan əhalisi, 2012; Azərbaycan Respublikası...., 2011) (cədvəl).

Cədvəldən aydın olur ki, iqtisadi-coğrafi rayonun şəhər məskunlaşma sistemində əhalisinin sayı 10 min nəfərə qədər olan kiçik və orta şəhərlər üstünlük təşkil edir. Onların sayı, əhalinin son siyahıyaalma məlumatlarına görə (2009-cu il), 14-dür. Bu da iqtisadi-coğrafi rayonun bütün şəhər yaşayış məntəqələrinin 70%-i deməkdir. Bu kateqoriyadan olan şəhər yaşayış məntəqələrinin sayının və payının çox olmasına baxmayaraq, onlarda bütün Lənkəran-Astara iqtisadi-coğrafi rayonu şəhər əhalisinin ancaq 27,5%-i yaşayır.

Hazırda əhalisinin sayı 10-15 və 15-20 min nəfər olan şəhərlərin sayı 4-dür. Onlar da ümumi şəhər yaşayış məntəqələrinin 20%-ni təşkil edir. Bu şəhər yaşayış məntəqələrində isə ümumilikdə iqtisadi-coğrafi rayonun şəhər əhalisinin 27,1%-i cəmlənmişdir.

Əhalinin son siyahıyaalma məlumatlarına görə, Lənkəran-Astara iqtisadi-coğrafi rayonunda əhalisinin sayı 40 mindən çox olan iki şəhər mövcuddur. Bu iki şəhər iqtisadi-coğrafi rayonun bütün şəhər yaşayış məntəqələrinin 10%-ni təşkil etsə də, onlarda iqtisadi rayonun şəhər əhalisinin əhəmiyyətli hissəsi – 45,4%-i yaşayır.


Lənkəran-Astara iqtisadi-coğrafi rayonunun şəhər məskunlaşma sisteminin əhalinin siyahıyaalma məlumatlarına görə struktur dəyişmələri

Əhalisinin sayı	Şəhər yaşayış məntəqələri								Onlarda yaşayan əhalinin sayı							
	1959		1979		1999		2009		1959		1979		1999		2009	
	sayı	%	sayı	%	sayı	%	sayı	%	sayı	%	sayı	%	sayı	%	sayı	%
3 min nəfərə qəd.	1	12,5	3	20,0	2	12,5	6	30,0	3000	4,9	6100	4,8	4408	2,5	10192	5,0
3-5 min	1	12,5	7	46,7	5	31,3	3	15,0	3200	5,3	28300	22,4	19995	11,2	11974	5,9
5-10 min	5	62,5	1	6,7	4	25,0	5	25,0	29300	48,2	9300	7,4	30523	17,1	33749	16,6
10-15 min	-	-	2	13,3	3	18,8	2	10,0	-	-	22600	17,9	40639	22,8	24261	11,9
15-20 min	-	-	1	6,7	-	-	2	10,0	-	-	-	-	-	-	30958	15,2
20-30 min	1	12,5	-	-	-	-	-	-	25200	41,5	19900	15,8	-	-	-	-
30-40 min	-	-	1	6,7	1	6,2	-	-	-	-	40000	31,7	34601	19,4	-	-
40 mindən çox	-	-	-	-	1	6,2	2	10,0	-	-	-	-	48111	26,9	92290	45,4
Cəmi	8	100	15	100	16	100	20	100	60700	100	126200	100	178277	100	203424	100


Lənkəran-Astara iqtisadi-coğrafi rayonunun əhalisinin sayına, sosial-iqtisadi potensialına görə ən böyük şəhəri Lənkəran şəhəridir. Şəhər Lənkərançayın solunda, Xəzər dənizinin sahilndə yerləşir. Əhalinin 2009-cu il siyahıyaalma məlumatlarına görə, Lənkəran şəhərində 49970 nəfər əhali yaşayır. İqtisadi-coğrafi rayonun digər şəhər və qəsəbələrinin intensiv sosial-iqtisadi inkişafı fonunda Lənkəran əhalisinin iqtisadi rayonun ümumi şəhər əhalisi içərisindəki payı getdikcə azalır. Əgər 1939-cu ildə Lənkəran şəhərində ümumi iqtisadi-coğrafi rayonun şəhər əhalisinin 84%-i yaşayırdısa, 1959-cu ildə bu rəqəm 40,8%, 1979-cu ildə 32,6%, 1999-cu ildə 30,0%, 2009-cu ildə isə 24,5% təşkil etmişdir. Bu prosesə paralel olaraq Lənkəranın demoqrafik inkişafı iqtisadi-coğrafi rayonun şəhər əhalisinin demoqrafik inkişafından da geri qalır. Əhalinin demoqrafik inkişaf tempində baş verən bu meyillər Lənkəranın respublika tabeli şəhər və eyniadlı inzibari rayonun idarəetmə və sosial-iqtisadi mərkəzi olmasına baxmayaraq, onun regionun həyatındakı rolunun azalmasını göstərir. Bununla bərabər, Lənkəran şəhəri regionun sosial-iqtisadi, demoqrafik potensialında hələlik aparıcı rol oynamaqdadır (1-ci və 2-ci şəkillər).

Lənkəranın bir şəhər kimi formalaşmasında, inkişafında, əhalisinin sayının çoxalmasında onun yerinə yetirdiyi sosial-iqtisadi funksiya ilə yanaşı, həm də ətraf ərazilərin, kənd və qəsəbələrin mühüm təsərrüfat-təşkilat, sosial-mədəni mərkəz funksiyasını yerinə yetirməsi mühüm rol oynamışdır. Hazırda da bu funksiya şəhəryaradıcı amil kimi əhəmiyyətli rol oynayır. Lənkəran şəhəri hal-hazırda (2009-cu il) 8 qəsəbənin, 83 kəndin inzibati idarəetmə mərkəzidir.

Lənkəran şəhərinin iqtisadi bazasında sənaye infrastrukturu 40 müəssisə ilə təmsil olunur (2010-cu il). Bu müəssisələrdə çalışan sənaye-istehsal heyətinin sayı 1512 nəfər təşkil edir. Göründüyü kimi, sənaye müəssisələri çox kiçik həcmlidir, onların sənaye-istehsal heyətinin orta sayı 37,8 nəfər təşkil edir. Bu müəssisələr əməktutumlu olmayıb, əsasən yerli kənd təsərrüfatı məhsullarının emalı ilə məşğul olurlar. Şəhərin sənaye strukturunda yeyinti və tikinti sahələrinin müəssisələri üstünlük təşkil edir. Şəhərdə çay fabrikləri, ət və süd kombinatı, meyvə-tərəvəz konserv zavodu, müxtəlif tikinti məhsulları buraxan müəssisələr fəaliyyət göstərir.



1-ci şəkil. Lənkəran şəhərində əhalinin sayının dinamikası



2-ci şəkil. Lənkəran şəhəri əhalisinin ümumi şəhər əhalisinin tərkibindəki payının dinamikası

Şəhərin yüngül sənaye müəssisələri bir çox kiçik xidmət obyektləri ilə təmsil olunur. Lənkəran şəhərində Azərbaycan Elmi-Tədqiqat Bağçılıq və Subtropik Bitkilər İnstitutunun filialı, universitet, texnikum, musiqi məktəbi və s. yerləşir.

Lənkəran respublika tabeli şəhər, həm də əsas regional mərkəz olmasına baxmayaraq, burada artan demoqrafik potensiala uyğun mövcud və yeni yaranan iş yerlərinin olmaması-çatışmaması problemi mövcuddur. Ona görə də Lənkəran şəhəri ətraf regionların nisbətən inkişaf etmiş yaşayış məntəqələri ilə, xüsusən də Bakı ilə əhali mübadiləsində mənfi balansa malikdir. Yəni Lənkəran şəhərinə gələnlərin sayı bu şəhərdən gedənlərin sayından əhəmiyyətli dərəcədə azdır.

Lənkəran-Astara iqtisadi-coğrafi rayonunun demoqrafik, sosial-iqtisadi potensialına görə ikinci böyük şəhəri Cəlilabaddır. Bu şəhərdə, əhalinin 2009-cu il siyahıyaalma məlumatlarına görə, 42320 nəfər yaşayır. Cəlilabad şəhərinin əhalisi son on ildə (1999-2009) 22,3% artmışdır və ya iqtisadi-coğrafi rayonun şəhər əhalisinin 20,7%-ni təşkil edir. Bu da orta iqtisadi rayon göstəricisindən (14,5%) 6% bənd çoxdur. Cəlilabad şəhərinin inzibati idarəsində 1 qəsəbə, 117 kənd yaşayış məntəqəsi vardır. Məhz bu


amil Cəlilabad şəhərinin formalaşmasında, inkişafında şəhəryaradıcı amil kimi mühüm rol oynamış və oynamaqdadır. Artan demoqrafik potensiala uyğun iş yerlərinin olmaması-çatışmaması Cəlilabad şəhərinin digər böyük şəhərlərlə əhali mübadiləsində mənfi miqrasiya balansına səbəb olur. Buna baxmayaraq, Cəlilabad əhalinin artım tempinə görə regionda Lənkərandan daha surətlə inkişaf edir və yaxın gələcəkdə, belə davam etsə, iqtisadi rayonun əsas regional mərkəzi funksiyasını öz üzərinə götürəcəkdir (3-cü və 4-cü şəkillər).

Əhalisinin sayına görə Lənkəran-Astara iqtisadi-coğrafi rayonunun üçüncü şəhəri Azərbaycan və İran sərhədində yerləşən Astara şəhəridir. Şəhərdə, 2009-cu il əhalinin siyahıyaalma məlumatlarına görə, 15304 nəfər, 2011-ci ilin əvvəlinə olan statistikaya görə, 16,7 min nəfər əhali yaşayır. Astara şəhərinin bir şəhər yaşayış məntəqəsi kimi formalaşmasında və inkişafında onun əlverişli sərhəd iqtisadi-coğrafi mövqeyi ilə yanaşı, eyniadlı inzibati rayonun təsərrüfat-təşkilat mərkəzi olması funksiyası da mühüm rol oynamışdır. Təsadüfi deyildir ki, hazırda Astara şəhərinin inzibati idarəçiliyində 1 şəhər, 1 qəsəbə, 13 kənd ərazi vahidi və 90 kənd yaşayış məntəqəsi vardır.


Astara şəhərinin təsərrüfat strukturunda əsasən yerli kənd təsərrüfatı xammalının emalına əsaslanan yeyinti sənayesi müəssisələri fəaliyyət göstərir. Onlardan da ən əsası çay fabriki, ət-süd emalı müəssisələridir. Xəzər sahilindəki liman mövqeyi, İran ilə mövcud olan sərhəd-keçid məntəqəsinin burada yerləşməsi, yuxarıda qeyd edilən amillərlə yanaşı, şəhərin sosial-iqtisadi və demoqrafik inkişafında müəyyən rol oynayır. Lakin Astara şəhərində iş yerlərinin məhdudluğu, nisbətən yüksək demoqrafik inkişafın mövcudluğu şəhərin iqtisadi bazası ilə demoqrafik potensialı arasında disproporsiyanın olmasına səbəb olmuşdur. Ona görə də Astara şəhəri mənfi miqrasiya balansına malikdir. Bu da şəhərin təsərrüfat strukturunu əməktutumlu, emaledici maddi infrastruktur sahələr hesabına yaxşılaşdırmağı – təkmilləşdirməyi tələb edir.

Əhalisinin sayına görə Lənkəran-Astara iqtisadi-coğrafi rayonunun dördüncü şəhəri rayon tabeli Göytəpə (keçmiş Prişib) şəhəridir. Cəlilabad inzibati ərazi bölgüsünə aid olan bu şəhərdə, 2009-cu ilin siyahıyaalma materiallarına görə, 13590 nəfər, 2011-ci ilin əvvəlinə olan cari statistikaya görə isə, 13900 nəfər əhali yaşayır. Yuxarıda iqtisadi-coğrafi təhlilə məruz qalan şəhərlərə xas olan xüsusiyyətlər Göytəpə şəhəri üçün də səciyyəvidir. Fərqli cəhəti odur ki, bu şəhərin təsərrüfat-təşkilat funksiyası yalnız özünü əhatə edir.

Lənkəran-Astara iqtisadi-coğrafi rayonunun Liman şəhəri (keçmiş Port-İliç) 1921-ci ildə dəniz limanı kimi Qızılağac körfəzinin sahilində yaranmışdır. Uzun müddət (1940-cı ilə kimi) Xəzərlə daşınan tranzit yüklərin əsas ötürmə məntəqələrindən biri olmuşdur. Əlverişli təbii-coğrafi şəraiti bu limanı bütün Xəzər sahilində dalğa və qasırğalardan qoruyan əhəmiyyətli bir məntəqə etmişdir. Bu limanda, hava şəraitindən asılı olmayaraq, uzun müddət İranla SSRİ arasında olan nəqliyyat əlaqəsində yükvurma və yükboşaltma əməliyyatları aparılmış, tufanlı hava şəraitində gəmilər dalğadan qorunmuşlar. Sonralar dənizin geri çəkilməsi nəticəsində dayazlaşma ilə əlaqədar bu funksiya əhəmiyyətini azaltmışdır. Hazırda balıqçı gəmilərinin sahilə yan alması üçün dəniz kanalı fəaliyyət göstərir. Şəhərdə bir neçə kiçik yeyinti sənayesi müəssisəsi vardır. Onların içərisində balıq emalı zavodu istehsal heyətinin çoxluğu, iqtisadi cəhətdən rentabelliyi ilə fərqlənir.



3-cü şəkil. Cəlilabad şəhərində əhalinin sayının dinamikası



4-cü şəkil. Cəlilabad şəhəri əhalisinin ümumi şəhər əhalisinin tərkibindəki payının dinamikası

Liman şəhərində, əhalinin 2009-cu il siyahıyaalma materiallarına görə, 10671 nəfər, 2011-ci ilin əvvəlinə olan cari statistikaya görə isə, 10800 nəfər yaşayır. Şəhərin iqtisadi bazasını ətraf ərazilərin kənd təsərrüfatı məhsullarının emalına əsaslanan yeyinti sənayesi müəssisələri təşkil edir. Bu müəssisələr əsasən kiçikhəcmli olub az əməktutumludurlar. Artan demoqrafik potensiala uyğun iş yerlərinin olmaması nəticəsində şəhər mənfi miqrasiya balansına malikdir.

Əhalisinin sayına görə Lənkəran-Astara iqtisadi-coğrafi rayonunun şəhər məskunlaşma sistemində 6-cı yeri Masallı şəhəri tutur. Bu şəhərdə, əhalinin 2009-cu il siyahıyaalma materiallarına görə, 8367 nəfər, 2011-ci ilin əvvəlinə olan məlumata görə isə, 9200 nəfər əhali yaşayır. Masallının bir şəhər kimi formalaşmasında, inkişafında onun yerinə yetirdiyi iqtisadi funksiya ilə yanaşı, ətraf ərazilərin təsərrüfat-təşkilat funksiyasını yerinə yetirməsi fəaliyyəti də mühüm rol oynamış və oynamaqdadır. Doğrudur, kollektiv sosialist təsərrüfat sisteminin ləğv edilməsi, özəl təsərrüfatçılıq sisteminin yaranması Masallının təsərrüfat-təşkilat funksiyasının zəifləməsinə və bir şəhəryaradıcı faktor kimi bu amilin rolunun azalmasına səbəb olmuşdur. Hazırda (2011-ci il) Masallı şəhərinin inzibati-idarəçiliyində 1 şəhər, 3 qəsəbə, 33 kənd ərazi vahidində birləşən 105 kənd yaşayış məntəqəsi yerləşir. Şəhər dağətəyi və düzən ərazinin kənd təsərrüfatının intensiv inkişaf etdiyi sıx məskunlaşma arealında yerləşir.

Masallı şəhərinin təsərrüfat strukturunda əsas yeri kiçikhəcmli yeyinti və yüngül sənaye müəssisələri və tikinti sahəsi tutur. Əsas yeyinti sənayesi müəssisələri ətraf kənd yaşayış məntəqələrinin istehsal etdiyi yerli xammalın emalı ilə işləyən meyvə-tərəvəz konserv, ət-süd zavodlarıdır.

Bu şəhərdə də demoqrafik inkişaf sosial-iqtisadi inkişafı qabaqlayır. Bu da artan demoqrafik potensialın iş yerlərinin çatışmaması-olması ilə əlaqədar başqa yerlərə miqrasiyasına səbəb olur. Ona görə də Masallı şəhərinin əhalisi yalnız yerli təbii artım hesabına çoxalır. Hətta artan yerli təbii artımın müəyyən hissəsi bu yaşayış məntəqəsindən kənara çıxır.

Lənkəran-Astara iqtisadi-coğrafi rayonunun şəhər məskunlaşma sistemində əsas regional mərkəzlərdən biri kimi Lerik şəhəri seçilir. Lerik şəhərinin şəhəryaradıcı amil kimi iqtisadi bazasını kiçik yeyinti sənayesi müəssisələri, ən əsası isə ətraf yaşayış məntəqələrinin, iqtisadi həyatın təsərrüfat-təşkilat, sosial-mədəni mərkəzi olması funksiyası təşkil edir. Cəlilabad inzibati-ərazi bölgüsündən sonra Lerik rayonu ərazisinə görə iqtisadi-coğrafi rayonun ikinci rayonudur. Ona görə də təsərrüfat-təşkilat funksiyasının miqyasına görə Lerik şəhəri iqtisadi-coğrafi rayonda fərqlənir. Lerik şəhəri dağ vadisində dəniz səviyyəsindən 1500-2500 m mütləq hündürlüklər arasında yerləşir. Lənkəran-Astara iqtisadi-coğrafi rayonuna daxil olan bütün inzibati rayon mərkəzlərindən ən çox yaşayış məntəqəsi Lerik şəhərinin inzibati idarəçiliyindədir. Ümumiyyətlə, Lerik şəhərinin inzibati idarəçiliyində 1 şəhər, 28 kənd ərazi dairəsinə daxil olan 160 kənd yaşayış məntəqəsi yerləşir. Son statistik məlumata görə (2011), bu şəhərdə 7500 nəfər əhali yaşayır.

İqtisadi-coğrafi rayonun dağlıq hissəsində yerləşən şəhər məskunlaşma sisteminin mühüm istinad-dayaq karkaslarından biri Yardımlı şəhəridir. Yardımlı şəhəri Viləşçayın sol sahilində, dağ yamacında yerləşir. Şəhərin əsas şəhəryaradıcı bazası onun ətraf ərazilər üçün təsərrüfat-təşkilat, sosial-mədəni mərkəz funksiyası daşımasıdır. Son statistik məlumata görə, bu şəhərin inzibati idarəçiliyində 1 şəhər, 29 kənd ərazi dairəsinə daxil olan 87 kənd yaşayış məntəqəsi vardır. 2011-ci ilin əvvəlinə olan məlumata görə, Yardımlı şəhərində 6,7 min nəfər əhali cəmlənmişdir. Şəhərin ətraf ərazilərində – kəndlərdə becərilən kənd təsərrüfatı xammalının, xüsusən də heyvandarlıq məhsullarının emalına əsaslanan, o qədər də böyük olmayan yeyinti sənayesi müəssisələri fəaliyyət göstərir.

Lənkəran-Astara iqtisadi-coğrafi rayonunun şəhər məskunlaşma sistemində qəsəbələr əhəmiyyətli rol oynayır. Rayon şəhər məskunlaşma sistemində 12 qəsəbə ilə təmsil olunur. Bu yaşayış məntəqələrində 2009-cu ilin əhalinin siyahıyaalma materiallarına görə, 49465 nəfər əhali yaşayır. Bu da iqtisadi-coğrafi rayonun bütün şəhər əhalisinin 24,5%-i deməkdir. Əhalisinin sayına görə ən böyük qəsəbə Ərkivandır (15654 nəfər). Əhalisinin nisbətən böyük demoqrafik potensialı ilə Boradigah (5781 nəfər), Nərimanabad (4613 nəfər), Gərmətük (4140 nəfər) və İstisu (3221 nəfər) qəsəbələri seçilir. Azərbaycan qanunvericiliyinə görə, yaşayış məntəqəsinə şəhər statusu əhalisinin sayı 15 min nəfərdən çox olan qəsəbə və ya kəndə verilir. Göründüyü kimi, Ərkivan demoqrafik potensialına görə

bu statusa layiqdir. Lakin iqtisadi cəhətdən fəal əhalinin tərkibində sənaye və sosial infrastrukturlarında çalışanların payı azdır. Əhalinin əhəmiyyətli hissəsi kənd təsərrüfatının müxtəlif sahələrində çalışır.

Beləliklə, Lənkəran-Astara iqtisadi-coğrafi rayonunun şəhər məskunlaşma sisteminin inkişaf xüsusiyyətlərinin iqtisadi-coğrafi tədqiqi aşağıdakı nəticələrə gəlməyə əsas verir:

1. Əlverişli təbii-coğrafi şərait, iqtisadi-coğrafi mövqe, əməktutumlu kənd təsərrüfatı sahələrinin inkişafı və onun məhsullarının emalı, təsərrüfat-təşkilat, sosial-mədəni mərkəz funksiyası şəhərlərin və qəsəbələrin inkişafında mühüm rol oynamışdır.

2. Şəhər məskunlaşma sisteminin strukturunda region üçün səciyyəvi olan kiçik şəhər və qəsəbələrin demoqrafik payı azalmaqda, orta və böyük şəhərlərin payı artmaqdadır.

3. Şəhərlərin demoqrafik inkişafında baş verən meyillər Lənkəran şəhərinin regional mərkəz kimi rolunun zəifləməsini göstərir. Təkcə son 10 ildə (1999-2009) Lənkəran şəhərinin ümumi şəhər əhalisindəki payı 8,1% azalmışdır. Yaxın gələcəkdə regional mərkəz funksiyası Lənkəran şəhərindən Cəlilabad şəhərinə keçə bilər.

4. Şəhər yaşayış məntəqələrinin demoqrafik potensialı ilə, xüsusən də onların əmək ehtiyatları ilə iqtisadi bazası arasında disproporsiya mövcuddur və o dərinləşməkdə davam edir. Ona görə də şəhərlərin hamısı mənfi miqrasiya balansına malikdir.

5. Şəhər məskunlaşma sisteminin inkişafının təkmilləşdirilməsində şaquli urbanizasiyalaşmağa üstünlük verilməlidir. Xüsusən də relyef şəraitinin imkan verdiyi yerlərdə yeraltı tikililər (anbarlar, soyuducular, qarajlar və s.), əsasən də insanların uzun müddət qalmayacağı obyektlərin yerləşdirilməsinə üstünlük verilməsi məqsədəuyğundur.

6. Lerik və Yardımlı şəhərləri daha surətli inkişaf etdirilməli, daglıq ərazinin demoqrafik potensialını yerlərdə saxlamaqla bərabər, əsas sərhəd yaşayış məntəqəsi kimi onların mühüm istinad–dayaq karkası funksiyası gücləndirilməlidir.

ƏDƏBİYYAT

AZƏRBAYCANIN ƏHALİSİ. 2012. Dövlət Statistika Komitəsi. Bakı. 124s.

AZƏRBAYCAN RESPUBLİKASI ƏHALİSİNİN SİYAHIYAALINMASI – 2009. Cild 1. 2011. Bakı.

ƏYYUBOV, N.H. 2008. Azərbaycanda əhali məskunlaşmasının təkmilləşdirilməsinin iqtisadi-coğrafi problemləri. *AMEA-nın Xəbərləri. Yer elmləri*, 1, 144-150.

MEHRƏLİYEV, E.Q., ƏYYUBOV, N.H., SADIQOV, M.O. 1988. Azərbaycan SSR-də əhalinin məskunlaşması məsələləri. Bakı. 192s.

PAŞAYEV, N.Ə., ƏYYUBOV, N.H., EMİNOV, Z.N. 2010. Azərbaycan Respublikasının iqtisadi, sosial və siyasi coğrafiyası. Bakı. 416s.

Məqaləyə c.e.d. V.Ə.Əfəndiyev rəy vermişdir.